# "Musiqi mənim həyatımdır"



**Fərid Əzizli musiqiçidir. Hələ kiçik yaşlarından muğama, milli vokal sənətinə maraq göstərib. Bu maraq addım-addım onu musiqi dünyasına yaxınlaşdırıb. Şirin, ürəyəyatımlı, məlahətli səsi olan Fərid xalq mahnılarımızı, muğamlarımızı böyük məharətlə ifa edir.**

Ondan səsinin nə vaxt fərqli bir səsi olduğunu bildiyini soruşanda bir anlıq fikrə getdi. Ötənləri xatırlayıb dedi ki, səsimin başqalarından fərqli olduğunu hələ kiçik yaşlarımdan bildim. Bağçada tərbiyəçi-müəllimlər bizə mahnılar oxutdururdular. Uşaqlarla bərabər mən də həvəslə öyrədilən mahnıları ifa edirdim. Oxuduqca da musiqiyə həvəsim, marağım artırdı. Tərbiyəçi-müəllimlərin də səsimdən xoşları gəlirdi. Xatırlayıram ki, ilk oxuduğum "Azərbaycan oğluyam" mahnısı idi. Elə indi də həmin mahnını böyük şövqlə oxuyuram.

Hələ kiçik yaşlarından musiqi dünyası Fəridin qarşısında qapılarını geniş açıb. 2004-cü il fevralın 13-də Bakı şəhərində dünyaya göz açan Fərid 2010-cu ildə 215 nömrəli orta məktəbə gedib. O, musiqi dünyasından da uzaq düşməyib. Elə həmin ildən də A.İsgəndərov adına mədəniyyət sarayında xanəndəlik üzrə musiqi təhsili almağa başlayıb. 2015-ci ildə bu mədəniyyət sarayındakı musiqi təhsilini uğurla başa vuraraq müsabiqə yolu ilə Tofiq Quliyev adına 12 nömrəli onbirillik musiqi məktəbinə qəbul olub. Fərid Əzizli 2021-ci ildə həm orta məktəbi, həm də musiqi məktəbini bitirib. İmtahanlardan uğurla keçərək Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Musiqi fakültəsinin xanəndə ixtisasına qəbul olub. Hazırda 4-cü kursda təhsilini uğurla davam etdirir.

İstedadlı gənc olan Fərid Əzizli hələ orta məktəbdə oxuduğu illərdə bir çox respublika və beynəlxalq müsabiqə və festivallarda, konsert proqramlarında iştirak edib, uğurlar qazanıb. Musiqimizi ölkəmizdən uzaqlarda da təbliğ edib. 2017-ci ildə 13 yaşında Gürcüstanın Barjomi şəhərində keçirilən 6-cı beynəlxalq "Hormania" festivalında iştirak edib. Festvaldakı uğurlu çıxışına görə laureat adını qazanıb. 2019-cu ildə Ukraynada keçirilən 1-ci beynəlxalq incəsənət müsabiqəsində 1-ci yerə layiq görülüb və diplomla mükafatlandırılıb. 2020-ci ildə Rusiya Federasiyasında keçirilən "Yujnaya papsodiya" beynəlxalq incəsənət müsabiqəsində Qran-pri mükafatı qazanıb. 2021-ci ildə "TÜRKSOY" Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin təşkil etdiyi "TÜRKSOY" II Beynəlxalq Tələbə Tamaşaları festivalında fəal iştirakına görə sertifikatla təltif olunub.

Musiqi tariximizdə dərin izlər qoymuş hansı müğənnilərdən bəhrələndiyini, hansı sənətkarlara rəğbət bəslədiyini soruşanda Fərid dedi ki, musiqiçilərimizin hamısına böyük sevgi və hörmətlə yanaşıram. "Musiqi tariximizdə öz sözünü demiş müğənnilərdən Xan Şuşinskidən, Seyid Şuşinskidən, Alim Qasımovdan, Zeynəb Xanlarovadan, Qulu Əsgərovdan, Əlibaba Məmmədovdan, Hacıbaba Hüseynovdan, Şövkət Ələkbərovadan, eləcə də milli vokal sənətinin korifeyləri Rəşid Behbudovdan, Hüseynağa Hadıyevdən, Mirzə Babayevdən və başqalarından bəhrələnirəm. Musiqi dünyasının sirlərinə daha da dərindən vaqif olmağa çalışıram. Çünki musiqi mənim həyatımdır".

Fəriddən bu günə qədər qazandığı uğurlara görə kimə borclu olduğunu soruşanda minnətdarlıq hissi ilə danışdı. Dedi ki, qazandığım uğrulara görə müəllimlərim olmuş respublikanın Əməkdar artistləri İsmayıl Ələkbərova, Zakir Əliyevə, həmçinin Ayşən Eminliyə borcluyam. Bu insanlar zaman-zaman musiqini mənə sevdiriblər və öyrədiblər. Xanəndə kimi formalaşmağımda xeyli əziyyət çəkiblər.

Fərid hələ çox gəncdir. Onu qarşıda yeni-yeni sınaqlar gözləyir. İnanırıq ki, istedadlı gənc müğənni bu sınaqlardan uğurla keçəcək, musiqimizi dünyada həm təbliğ edəcək, həm də sevdirəcək. Qazanacağı uğurları ilə xalqımıza böyük sevinc bəxş edəcək.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*



Azərbaycan.- 2024.- 4 avqust, (№ 164).- S.10.